# Allaha and olsun ki, Allahın, sənin əlinlə tək bir insana hidayət etməsi, sənin üçün qırmızı dəvələrə sahib olmağından daha xeyirlidir

Səhl bin Səddən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Xeybər günü dedi: Sabah bu bayrağı elə bir kişiyə verəcəm ki, Allah onun əli ilə zəfər nəsib edəcək, O, Allah və Rəsulunu sevir, Allah və Rəsulu da onu sevir." Dedi: İnsanlar o gecəni, bayrağın kimə veriləcəyini düşünərək keçirdilər. Sabah olduğunda onların hər biri bayrağın özünə veriləcəyi ümidilə Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına getdi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Əli bin Əbu Talib hardadır?" Dedilər: Ey Allahın Rəsulu, gözlərindən şikayət edir (gözləri ağrıyır). Dedi: Onun yanına adam göndərin (gəlsin). Əlini gətirdilər və Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onun gözlərinə tüpürdü və onun üçün dua etdi. Əli, sanki heç bir ağrısı olmamış kimi dərhal sağaldı və (Peyğəmbər), bayrağı ona verdi. Əli (Allah ondan razı olsun) dedi: "Ey Allahın Rəsulu! Onlar da bizim kimi olana qədər onlarla döyüşəcəmmi?" Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Sən, onların olduqları yerə yavaş-yavaş get (yəni dərhal döyüşə girmə). Sonra onları İslama dəvət et və Allahın haqqı olaraq yerinə yetirmələri vacib olan şeyləri onlara bildir. Allaha and olsun ki, Allahın, sənin əlinlə tək bir insana hidayət etməsi, sənin üçün qırmızı dəvələrə sahib olmağından daha xeyirlidir."

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) növbəti gündə müsəlmanların Xeybər yəhudiləri üzərində qələbə çalacağını və bunun bayrağı verəcəyi kişinin əli ilə olacağını səhabələrə xəbər verdi. Bu bayraq, əsgərlərin şüar olaraq götürdüyü bayraqdır. Bu kişinin vəsfindən, Allahı və Rəsulunu (Allahın salavatı və salamı onun üzərinə olsun) sevməsi, Allah və Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) da onu sevməsidir. Səhabələr bu böyük şərəfi arzulayaraq, bayrağın kimə veriləcəyi barədə gecə müzakirə aparıb, danışdılar. Səhər açılanda hamısı Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına getdilər. Onların hər biri bu şərəfi qazanacağına ümid edirdi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Əli bin Əbu Talib (Allah ondan razı olsun) haqqında soruşdu. Dedilər: O, xəstədir, gözlərindən şikayət edir. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onun yanına adam göndərdi və onu gətirdilər. Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) şərəfli ağız suyundan Əlinin gözlərinə tüpürdü və onun üçün dua etdi və o, heç bir ağrısı olmamış kimi sağaldı. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bayrağı ona verdi və ona əmr etdi

ki, ehtiyatla gedərək düşmən qalasına yaxınlaşsın və onları İslama daxil olmağa çağırsın. Əgər cavab versələr, onlara hansı fərzlərin vacib olduğunu xəbər versin. Sonra, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Əliyə Allahın yoluna dəvət etməyin fəzilətini bəyan edərək bildirdi ki, dəvətçinin bir adamın hidayətinə səbəb olması onun üçün ərəblərin ən qiymətli sərvəti olan qırmızı dəvələrə sahib olmağı və ya onları sədəqə verməyindən daha xeyirlidir.

https://sunnah.global/hadeeth/az/show/3409

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee